**Adil Quliyev**

# UŞAQLIĞA MƏKTUB

*Hekayələr*

QANUN NƏŞRİYYATI

**Adil Quliyev. Uşaqlığa məktub.** ***Hekayələr***
Bakı, Qanun Nəşriyyatı, 2026, 272 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalanıb: 10.06.2026

| | |
|---|---|
| Rus dilindən çevirdi: | Dürdanə İbrahimova-Hüseynbəyli |
| Redaktorlar: | Elçin Hüseynbəyli, Şərif Ağayar |
| Korrektor: | Çiçək Quluzadə |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rövşən Abbas |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-051-3

© Adil Quliyev, 2026
© Qanun Nəşriyyatı, 2026

Kitabda müəllifin Azərbaycan, Rusiya və Avropa həyatı, eyni zamanda, işğaldan azad edilmiş Qarabağla bağlı hekayələri toplanıb. Real yaşantılara əsaslanan əhvalatlar səmimi və yumoristik dillə nəql olunur. Yaşamaq eşqi, sevgi, dürüstlük, vətən sevgisi, uşaqlıq həsrəti və zamanın ötəriliyindən doğan estetik ağrı bu hekayələrin əsas qayəsini təşkil edir.

## Yenidən məktəbdə

*(Bizim Yaqub müəllim)*

Ətrafımı bürüyən günəşin parlaq şüaları yerin təkinə sirayət etmək istəyirdi. Yabanı çiçəklər qoxuyan hava, şirin çay kimi elə qatıydı ki, mən onu qurtum-qurtum udurdum. Yenicə pöhrələyən yarpaqlar, baramadan çıxan kəpənək kimi budaqdan yapışmışdı, sanki soyuqdan titrəyirdi. Keçmişi xatırlamağın, nostalji hisslərə qapılmağın əsl məqamıydı.

Çınqıllı yolla tələsmədən yeriyir, yol kənarında çiçəkləmiş ağaclara baxırdım. Mən hələ uşaq olanda buralar kolxozun hüdudsuz pambıq tarlasıydı. Payızda pambıq kollarının yarpaqları yerə tökülür, sahə sanki ağappaq qarla örtülürdü. O vaxtlar məktəbə getdiyimiz cığır tarlanı iki hissəyə ayırırdı. İndi isə burada cürbəcür meyvələri olan böyük bir bağ salınmışdı.

Doğulduğum kəndi çox sevirəm. Onu yeniyetmə vaxtlarımdan tərk eləsəm də, ürəyimə yatan tərəflərinə çox bağlıyam. Hər dəfə buralara gələndə uşaqlığımı xatırladan yerlərə getməyi xoşlayıram. İndi də qərara gəlmişdim, on il oxuduğum məktəbə baş çəkim.

Xırda bir ağaclığı keçəndən sonra maşınlar şütüyən şose yola çıxdım. O vaxt bura daş-kəsəklə örtülmüşdü və aralıdan məktəb binası görünürdü. İndi divarlarına zəka hopmuş, suvağı tökülmüş bina qarşısını kəsən bərbəzəkli ticarət obyektlərinin arxasında gizlənmişdi. Elə bil görkəmindən utanırdı. Həm də indi məktəb elə də dəbdə deyildi, indi hər tərəfdə biznes at oynadırdı. Adamların pula hərisliyi gözgörəti məktəbə həvəsi üstələyirdi.

Bu kədərli vəziyyət barədə fikirləşə-fikirləşə mağazaların şüşəli vitrinləri önündən keçdim. Bir də gözümü açdım ki, iynəyarpaqlı ağacların qoxusu gələn məktəbin həyətindəyəm. Bu ağaclar yaxşı yadımdadır. Ötən əsrin uzaq yetmişinci illərində onların arası ilə gəzməyi, tikanlı təpələrinə əlimi vurmağı xoşlayırdım. İndi bu ağaclar böyümüş, tikanlı budaqları başımdan yuxarı qalxmışdı.

Yamyaşıl xiyabanı keçəndən sonra doğma məktəbin qapısına çatdım. Kandara ayaq basanda baxdım ki, bu bilik hücrəsi əsaslı təmir olunub. Təzəcə rənglənmiş divarlar, pəncərə altlıqları, dəhlizə döşənmiş plitələr göz oxşayırdı.

Ustalar vicdanla işləmiş, binada dəyişilməsi, yenilənməsi mümkün olan nə varsa dəyişib-yeniləmişdilər, ancaq keçmişin ruhunu, ovqatını, ab-havasını itirə bilməmişdilər. Burada hava da bayırdan fərqliydi. Düşünürəm, ona kislorod, vodorod, azotdan başqa, məktəb proqramında olan fiziki, kimyəvi, riyazi formullar da qarışmışdı...

Dəhlizin ortasında dayandım, gözlərimi yumub dərindən nəfəs aldım. Uzun illərdən sonra doğma qoxunu yenidən duymaq çox xoş idi. Mənə tanış gələn bu qoxu burnumdan və boğazımdan keçib ağ ciyərlərimi sevindirdi.

Məktəbimiz rusların "П" hərfi formasında tikilmişdi, sinfimiz isə uzun dəhlizin sonunda yerləşirdi – dəlicəsinə vurulduğum qızın sinfi ilə üzbəüz... Fasilə zamanı hər ikimiz çölə çıxır və siniflərimizin qapısına söykənib bir-birimizə baxırdıq. O vaxtlar mobil telefon yox idi, ancaq biz – iki aşiq yeniyetmə uzaqdan-uzağa çox uğurla anlaşır, duyğularımızı çatdıra bilirdik.

Mən tanış dəhlizdə dayanmışdım. Kədərliydim. Çünki gözəl gözlü, heyranedici gülüşə sahib yeniyetmə yarımı bir daha görməyəcəkdim. Amma narahat olmağa dəyməzdi. Hər şey qaydasındaydı və o hələ də kəndimizdə yaşayırdı. İstəsəydim, onunla görüşə də bilərdim. Amma istəmirdim. Amma qızılgül butası kimi hələ tam açılmamış o yeniyetmə gözəli ovaxtkı kimi yadımda saxlamaq istəyirdim.

Məndən sizə bir məsləhət! Heç vaxt ilk məhəbbətinizə qayıtmayın. Ora heç yollar da axtarmayın. İlk sevgi duyğularınızı kəskin ağrı kimi, yaxud sonsuz bəxtəvərlik kimi yadınızda saxlayın.

Bu vəziyyətdə nə qədər qaldığımı bilmirəm, məni düşüncədən tanış səs ayırdı:

– Adil, salam! Nədir, köhnə məktəbin yadına düşüb?

Bu, Yaqub müəllim idi. Çoxdan görüşməsək də, dərhal tanıdım.

Məktəbimiz böyük idi, haradasa iki yüzə yaxın müəllimi vardı. Bu uzundraz, arıq, üzünü həmişə pis qırxan müəllim həmkarlarından təkcə xarici görünüşünə, çəyirtkə kimi atıla-atıla yeriməsinə görə yox, həm də danışıq tərzinə görə fərqlənirdi. Adətən, şagirdlər müəllimlərə keçdikləri dərslərə görə ayama qoşurlar: “Riyaziyyatçı”, “Tarixçi”, “Musiqiçi”... Yaqub müəllimdə vəziyyət başqa cür idi. Sir-sifətindən ziyalıya bənzəməyən bu adamı konkret hansısa fənnə bağlamaq asan deyildi. Halbuki məktəbdə ən çox ona ehtiyac duyulurdu. Onu işə çıxmayan müəllimlərin yerinə dərslərə göndərirdilər. Özü də vacib deyildi işə gəlməyən kimdir – kimya, biologiya, yaxud bədən tərbiyəsi müəllimi... Yaqub kimi gəldi əvəz edirdi. Niyə eləydi, bilmirəm. Yəqin, onun bütün fənlərdən başı çıxırdı.

Onu görməyimə sevindim.

Onunla bağlı xeyli məzəli əhvalatlar yadımda qalmışdı.

Məktəbdə istehsalat zədəsi almışdı. Həmin vaxt qırx yaşı ötsə də, evlənməmişdi. Görünür, qadının zərif və zəif məxluq olduğunu anlamışdı, onlardan qurtuluş yox idi. Ona görə də subay kişi üçün təhlükəli və sürüşkən cığırlarda qadınlarla qarşılaşmaq istəmirdi. Lakin məncə, subay adam sükansız, şturvalsız gəmi kimidir və çoxdandır özünə sakit liman axtarır. Bir dəfə elə oldu, gəmi sahilə yox, sahil özü gəmiyə yan aldı. Söhbət gənc və subay rus dili müəlliməsindən gedir. Qız

çox gözəl və ciddi xarakterli idi. İstənilən vaxt həmkarlarının, şagirdlərinin dadına yetirdi. Onlar da müəlliməni ilahiləşdirirdilər. O isə öz növbəsində həmin obraza layiq olmaq istəyir və elə gəzirdi, sanki başına çələng qoyublar. Bizim qəhrəman da, görünür, öz şansını əldən buraxmaq istəməyib, özünün sınıq-salxaq gəmisini uzaq yaşıl adaya sürmək sevdasına düşüb. Təəssüf, kapitan bir şeyi nəzərə almamışdı: axı bəzən sahilin lap yaxınlığında da sualtı qayalar olur.

O, gənc müəllimədən soruşanda ki, gəmisini hansı sahilə sürsün, çox orijinal cavab alıb: stul təpəsinə gəlib!

Müəllimənin bu hərəkətini məktəbdə hərə bir cür yozdu. Bir ehtimala görə, yaşı keçmiş subay Yaqub müəllim öz sevgisini emosional şəkildə ifadə edib və monoloq zamanı uzun əlləri dinc durmayıb. Bəziləri də hesab edirdi ki, rus dili müəlliməsi adaxlının “əlini və ürəyini ona bağışlaması” barədə fikrini düz başa düşməyib. Qızın vurduğu zərbə o qədər güclü alınmışdı ki, Yaqub müəllimin beynindəki qara fikirlər aşağı yuvarlanıb gözlərinin hər ikisini qaraltmışdı. Deyilənə görə, gözlər qəlbin aynasıdır. Sonralar o, həmkarları ilə söhbətində fikrinin xoşməramlı olduğunu təkrar-təkrar söyləsə də, bir şey hasil olmadı, çünki gözlərinin altındakı qara əksini deyirdi.

Hadisənin baş vermə səbəblərini heç kim bilmədi. Müəllimə də bir söz demirdi. Rəfiqələrinin söylədiyinə görə, qız babasına çəkib, faşistlər ona nə qədər işgəncə versələr də, partizanların sirrini açmayıb. Yaqub müəl-

lim də özünə gələndən sonra heç nə deyə bilməyib, çünki yaddaşı korlanıb. Ona elə gəlib ki, zəlzələ baş verib: "Yadımdadır, əvvəlcə gözlərim qaraldı, elə bildim, kimsə işıqları söndürüb, sonra ayaqlarım yerdən üzüldü, döşəməyə yıxıldım, ayılanda gördüm, stolun altındayam". Özü deyirdi ki, ona bir zərbə dəyib, amma heç kim Yaqub müəllimə inanmırdı. Fizika müəllimi uzun riyazi hesablamalardan sonra bu qənaətə gəlmişdi ki, qız onun başına azı iki zərbə endirib. Bu nəzəriyyəni bədbəxt Məcnunun üz-gözündəki, qulağındakı zədələr də təsdiqləyirdi.

Hadisədən sonra Yaqub müəllimin ürəyində lövbər salan sevgi gəmisi öz sahilini tərk etdi. Sonralar təhlükəsiz bir limanda qərarlaşdı – o evləndi. Bu dəfə əvvəlki səhvlərindən nəticə çıxardı və sınanılmış metoddan istifadə elədi; evlənmək istədiyi qıza ürəyindəki arzuları qohumları, yəni elçilər çatdırdılar.

Yaqub müəllim hal-əhval tutandan, birinci kitabım münasibətilə məni təbrik edəndən sonra məktəbə ekskursiyaya dəvət etdi. Təbii, dərhal razılaşdım. Köhnə məktəb binasının uzun dəhlizi ilə gəzişərkən o, yalnız öz həyatı barədə danışırdı. Mən ona qulaq asa-asa keçmiş müəllimimin ağ saçlarına, qırışmış üzünə, ötən illərin ağırlığı altında əyilən belinə baxırdım. Bədəncə belə dəyişmənin hamımızı gözlədiyini anladığım üçün kədərlənirdim.

Elə bu məqamda Yaqub müəllimlə baş verən daha bir hadisəni xatırladım.

Dərs ilinin axırıydı. Bir neçə gündən sonra məktəbi üç aylığına – yay tətilində unudacaqdıq. Havaların isti keçməsinə baxmayaraq, astronomiya müəllimimiz qəfil zökəm tutdu. Həmişəki kimi, bu dəfə də onu Yaqub müəllim əvəz elədi. Doqquzda oxuyurduq. Sinfimizin kandarına ayaq basan kimi dayandı, şagirdləri kədərlə süzdü, dərindən nəfəs aldı və dedi:

– Uşaqlar, bir bilsəydiniz, sizə necə də qibtə edirəm! Siz dünyanın ən xoşbəxt adamlarısınız! Heç anlayırsınız bunu?

– Yox, anlamırıq, – deyə xorla cavab verdik. – Niyə belə düşünürsünüz?

Onun cavabı çox sadə oldu:

– Çünki indi sizin on beş yaşınız var.

Təbii, o zaman biz Yaqub müəllimin dəli olduğunu düşündük. Bunun harası xoşbəxtlikdir, demək olar, hər gün tezdən durub məktəbə gedirsən, axşamlar gecə keçənə kimi ev tapşırıqlarını yerinə yetirirsən... Nə evdə, nə küçədə, nə də məktəbdə bir kimsə səni ciddi qəbul eləmir, hər şey üçün böyüklərdən icazə alırsan...

O zaman həmyaşıdlarımdan heç kim Yaqub müəllimin dediklərini başa düşmədi. Halbuki çox sadə, ağlabatan sözlər demişdi. Bu sözlərdə elə dərin məna vardı ki, mən onu yalnız qırx il keçəndən sonra anladım. Yaş keçdikcə Yaqub müəllimin sözləri mənə daha inandırıcı, daha ağlabatan görünür.

Məktəbə qısa ekskursiyadan sonra keçmiş müəllimim söhbətimizi başqa yerdə davam etdirmək təklifini verdi. Əlbəttə, həvəslə razılaşdım.